AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ
F. KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI
ELMİ-METODİKA ŞÖBƏSİ



(Teymur Elçinin 90 illik yubileyi ilə əlaqədar )

# Ustad qələmində uşaq dünyası

metodik vəsait

Bakı - 2014

**Tərtibçidən:**

Əziz uşaqlar! Bu il sizlər üçün "Şəkərim, duzum", "Torağayın nəğmələri", "Toğrul babanın nağıl ağacı", "Qar qız", "Qızulduz, Yaşar və Nur nənə", "Din, dan", "Bahar, adlar, uşaqlar", "Şeirlər, sözlər, nəğmələr", "Laylalar", "Balaca Aytən" kitablarında maraqlı şeirlər, nağıllar, nəğmələr qoyub getmiş sevimli şairimiz Teymur Elçinin 90 illik yubileyidir. O, sevə-sevə dinlədiyiniz "Bip-Bip nəğməsi", "Sərçə", "Bizim həyət" və bir çox uşaq nəğmələrin də müəllifidir. Uşaq yazıçısı olaraq şairin bu il 90 illik yubileyi münasibətilə keçirilən tədbirlərə kitabxanamız da qoşulacaq.

Ədəbi fəaliyyətə erkən yaşlarından başlayan Teymur Elçin şeirlərinin dili sadə, qafiyələri musiqili olduğundan bu şeirlər yaddaşlarda əbədi həkk olunub. Şeirlərinə yazılmış mahnılarının isə bu gün də uşaqlar tərəfindən sevilərək oxunması şairin unudulmamasından xəbər verir. Şair öz yaradıcılığında arxaik sözlərə belə yeni nəfəs, yeni can vermişdir. Müxtəlif xalqların uşaq yazıçıların əsərlərini böyük ustalıqla dilimizə tərcümə etmişdir.

Yubiley münasibətilə hazırladığımız bu vəsaitdə məqsədimiz şairimizi sizə daha yaxından tanıtmaqdır. Onun yaradıcılığında yer alan təmsillər, tapmacaları yenidən uşaqlara sevdirməkdir.Vəsait iki hissədən ibarətdir: "Giriş hissə", və "Keçiriləcək tədbirlər".

Girişdə şairin həyat və yaradıcılığı haqqında məlumat verilir, II hissədə isə kitabxanada şairin yubileyi ilə bağlı keçirilməsi nəzərdə tutulan tədbirlər haqqında danışılır, həmçinin şairin yubilyar kitablarından 2 kitabı, onun təbliği formaları haqqında danışılır. Şairin xatirəsinə hazırlanan ədəbi-bədii gecədə isə şair haqqında sitatlar, şeirlərinə hazırlanmış səhnəciklər, bədii kompozisiyalar verilmişdir.

**Həyat və yaradıcılığı:**

Əliyev Teymur Süleyman oğlu 1924-cü il martın 28-də Şuşa şəhərində anadan olmuşdur. 1931-ci ildə ailəliklə Bakıya köçmüşlər. Burada 132 saylı şəhər orta məktəbini bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır (1941-1948). Həmin ildən eyni zamanda "Gənc işçi" qəzeti redaksiyasında ədəbi işçi kimi fəaliyyətə başlamışdır. Azərbaycan Radio Komitəsində ictimai-siyasi verilişlər baş redaksiyasında ştatdankənar müxbir (1941-1942), diktor, redaktor, məsul redaktor (1942-1943), vəzifələrində işləmişdir.

Yaradıcılığa erkən yaşlarında başlayan Teymur Elçinin "Azərbaycan" adlı ilk şeiri 1938 – ci ildə Bakı Pionerlər evinin dərc etdiyi şeirlər məcmuəsində çap edilmişdir. "Qar qız", "Bip-Bip", "Qulaq asın, danışım", "Qizulduz, Yaşar və Nur nənə", "Toğrul babanın nağıl ağacı" adlı kitablarında Azərbaycan uşaq ədəbiyyatının ən gözəl nümunələrini yaratmış şair, Rus və digər xarici ölkə ədəbiyyatı nümayəndələrinin əsərlərini də dilimizə böyük ustalıqla tərcümə etmişdir. Bu tərcümələrin əksəriyyəti orijinal nümunədən də qüvvətli alınmışdır. Həmçinin elimizin, dilimizin qəhrəmanlıq eposu sayılan "Kitabi Dədə Qorqud" un motivləri əsasında yazdığı "Oğul Buğac" poeması şairin yaradıcılığında uşaqlar üçün yazdığı ən gözəl nümunələrdəndir. Əsərdə o "Kitabi Dədə Qorqud" un, bədii quruluşunu saxlamaqla eposu uşaq dili ilə sadə dildə uşaq təfəkkürünə çatdırmışdır.

Şairin kitablarının hər biri kiçikyaşlı oxucular üçün xeyirxahlıq, ülvi hislər və səmimiyyət tərbiyə edir. Son dövrlərdə bu kitablar latın qrafikası ilə çap edilməsə də, kitabdakı şeirlər, nəğmələr məktəb kitablarında sevə-sevə çap edilir.

Şairin kitablarındakı şeir və poemaların əksəriyyəti kiçikyaşlı oxucular üçün nəzərdə tutulmuşdur. Bu isə şairin istedadı ilə yanaşı, uşaq aləmini daha dərindən bilməsindən xəbər verir. Onun qələmə aldığı şeirlər və poemaların sözlərindəki məna çaları bir növ uşaqlara müxtəlif tərbiyəvi fikirlər aşılamaq, ibrətamiz həyat hadisələrini dərk etmək üçün gözəl vasitədir desək yanılmarıq.

O həmçinin respublikamızda uşaqlar üçün yazılmış ən gözəl mahnıların sözlərinin də müəllifi olmuşdur. F. Əmirov, O. Zülfüqarov, A. Rzayeva və başqa bəstəkarların şairin sözlərinə yazdığı mahnıları dillər əzbəridir.

Onun uşaqlar üşün yazdığı "Qar Qız" pyesi 1983-cü ildə M. Qorki adına Gənc tamaşaçılar teatrında tamaşaya qoyulmuşdur.

Şair 20 mart, 1992-ci ildə vəfat etmişdir. Hazırda Bakının küçələrindən biri şairin adını daşıyır.

**Keçiriləcək tədbirlər:**

Bu il martın 28-də 90 illik yubileyi qeyd edilən sevimli şairimiz Teymur Elçinin yaradıcılığı kitabxanamızda da xüsusi qeyd ediləcək. Yubiley ərəfəsində şairin kitablarının icmalını, sərgisini, oxucularla şairin kitabları haqqında sərgi qarşısında söhbətlər təşkil etmək, şairin xatirəsinə *"Teymur Elçin - 90", "Uşaqlar üçün yazanda"*, və s. başlıqlar ilə ədəbi-bədii gecə təşkil etmək olar

Şairin 90 illik yubileyi ilə yanaşı bu il 1959-cu ildə nəşr edilən **"Bip-bip"** kitabının 55, 1964-cü ildə nəşr edilən **"Din-dan"** kitabının isə 50 illik yubileyləridir. Kitabxanada şairin bu kitabları ilə oxucuları yaxından tanış etmək üçün müxtəlif kitab təbliği formalarından istifadə edə bilərik. Kitabxanamızın Məlumat – biblioqrafiya şöbəsi yubiley münasibətilə kitablar haqqında geniş slayd hazırlamışdır.







Slayd və kitabların tam mətni www.clb.az saytında yerləşdirilmişdir. Son vaxtlar bu kimi kitablar latın qrafikası ilə nəşr edilmədiyindən kitabxanamızda kiril əlifbası ilə olan kitabların latın əlifbasına çevrilərək tam mətni hazırlanaraq kitabxananın saytında oxucuların ixtiyarına verilmişdir.

Şəraitə uyğun olaraq kənd kitabxanaları və digər kitabxana filiallarında bu yubilyar kitablar haqqında albom hazırlamaq məqsədəuyğun olar.
Albomda şairin həyat və yaradıcılığı haqqında məlumat verib, kitabdakı uşaq şəkilləri, illüstirasiyalardan istifadə edə bilərik.

Sonda uşaqların yubilyar kitablar haqqında fikirləri, şeir haqqında nə öyrəndikləri mövzusunda rəy yazması üçün bir neçə səhifə saxlamaq olar. Həmçinin müəllif haqqında, həmin kitabların illüstrasiyaları haqqında, kitabın tərtibatı haqqında suallar vermək olar:

☺ Şəkillər xoşuna gəldimi?

☺ Bu kitabların yenidən nəşr olunmasını istəyərsinizmi?.

☺ Kitabdakı şeirlərdən ən çox hansını bəyəndin?

Bu sualların cavabları əsasında bu kitabların adlarını nəşrinə ehtiyac olan kitabların siyahısına əlavə etmək olar.

MKS-lər və digər əsas kitabxana sistemlərində bu işi slayd şəkilində hazırlamaq daha məqsədə uyğundur.

Yubiley münasibətilə kiçikyaşlı oxucularla Bip-Bip şeirinin ucadan oxusunu təşkil edə bilərik. Ucadan oxunu daha maraqlı etmək üçün aşağdakı suallarla başlayırıq.

☺ Deyin görüm “ Bip-Bip kimdir?”

☺ Onunla tanış olmaq istərdinizmi?

☺ Bu sözlərə yazılmış mahnını eşitmisinizmi?

Ümumiyyətlə uşaq ədəbiyyatı nümayəndələri uşaq ədəbiyyatını bir növ əlifbaya bənzətmişlər. Əlifba ilə uşaqlar hərfləri yazmağı öyrənir. Ədəbiyyat isə həyatda onlara əlifbanın sehirli həriflərindən istifadə edərək sənət aləminə yol açır, lazım olacaq həyat hadisələrini öyrədir. Onların dünyagörüşünün formalaşması, estetik fikirlərin yaranmasında uşaq ədəbiyyatı məhz əlifba rolunu oynayır.

Şair əsərlərində Azərbaycan dilinin zənginliyini də nümayiş etdirir, sözləri çoxmənalı şəkildə uşaqlara izah edir.

Səhərin də gözü var
Günəşlə bir açılar.
Bulağın da,
Quyunun da gözü var, -
Tutulsa o quruyar,
...Şkafın da mənzilin də gözü var
Kimin belə sözü var?

Kiçik yaşlı uşaqlarla bu şeir ətrafında *sual-cavab* keçirmək daha yaxşı olar. Uşaqlarla şeiri ucadan oxuduqdan sonra onlara çoxmənalı sözlər haqqında məlumat verib, şeiri necə qavradıqlarını bilmək üçün şeirə aid suallar verə bilərik.

- **Sual 1.** Şeirdə Səhərin gözü dedikdə nə başa düşürsünüz?

- **Sual 2.** Niyə şair “ günəşi ” səhərin gözü adlandırıb?

- **Sual 3.** “ Göz ” sözünü şair daha hansı mənalarda vermişdir?

- **Sual 4.** Bu şeirdə bulağın, quyunun gözü dedikdə nə başa düşürsünüz ?

İlk növbədə Teymur Elçinin kitablarının təbliği üçün sərgilərin təşkili vacibdir. Sərgiləri ***“Teymur Elçin – 90”, “Fəsillər”, “Balaca ulduzlar”*** başlıqları altında təşkil edə bilərik. Dörd fəsli tərənnüm edən **“Fəsillər”** başlıqlı sərgini şairin “Mənim kiçik ulduzlarım” adlı kitabındakı fəsillərə aid şeirlərindən istifadə edərək hər fəslə uyğun təşkil etsək maraqlı olar.

**Sitatlar**

Hər şeirində, nəğməsində, tərcümə əsərlərində xalqımızın ruhu döyünən Teymur Elçin görkəmli bir söz adamı kimi hələ çox nəsillərin yol yoldaşı olacaqdır.

**Zahid Xəlil**.

Filologiya elimləri doktoru, professor

Teymur Elçin Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndələrindəndir

**N. Süleymanov.**

Teymur Elçin bütün varlığı ilə, bütün istedadı ilə uşaq ədəbiyyatına bağlı bir insandır

**Qulu Xəlilov.**

Filologiya elimləri doktoru, professor

Teymur müəllim uşaqlarla nəfəs almış, onların qəribə hərəkətlərini, arzu və düşüncələrini əks etdirən coxsaylı şeirlər, poemalar, mənzum nağıllar, səhnə əsərləri yazıb yaratmışdır.

**Rafiq Yusifoğlu**

Filologiya elimləri doktoru, professor

## Yaz gəldi

Gülə-gülə yaz gəldi,
Dedi məndən şeir yaz,
Qaranquşlar eşitsin,
Dağlarda lalə bitsin



- Qarr, qarr!
  Yağır qar.
  Hay salıb
  Qarğalar:
- Qağğ,qağğ!
  Göylərin
  Rəngi ağ.
  Ağarır
  Dərə, dağ,



## Fəsillər



Yuvadan çıxıb
Bala sərçəcik,
Baxdı ətrafa,
Elədi cik-cik.
Sevindiyindən
İçini çəkdi,
Nəyi gördüsə,
Dedi qəşəngdi



Üşüdüm, ay üşüdüm
Üşüdüm
Ağacdan nar düşürdüm,
Biri babamın,
Biri nənəmin,
Biri anamın,
Biri atamın

Sərgiyə baxış zamanı uşaqları cəlb etmək üçün onları məlumatlandırmaq yaxşı olardı.

**Gözəl bahar,**
**Gözəl bahar!**
**Darıxırıq,**
**Tez gəl, bahar!**
**Çətir-çətir**
**Güllər gətir,**
**Otaqlara**
**Dolsun ətir.**

Əziz uşaqlar! Hamınızın sevə sevə öyrəndiyiniz bu şeirin müəllifini tanıyırsınızmı?

Bu sevimli yazıçımız Teymur Elçinin "Şəkərim, duzum" kitabından olan "Gəl, Bahar" şeiridir. Şeirdə uşaqların gözəl, şən, güllü, çiçəkli baharı necə səbirsizliklə gözlədiklərindən söhbət açılır. Siz hansı fəsli daha çox sevirsiniz?

***Bulaq***




**Donmuşdu bulaq,**
**Yatmışdı bulaq.**
**Elə bilirdim**
**Batmışdı bulaq, -**
**Çıxmırdı səsi.**
**Gün doğdu birdən,**
**Nəfəs aldı yer.**
**Oynadı bulaq,**
**Ona qulaq ver –**
**Gəlir nəğməsi:**
**"Mənə qış dedi:**
**- Gözlərini yum!**
**Mən yumdum, dondum.**
**Mənə yaz dedi**
**- Gözlərini aç!**
**Tez ol, tez ol qaç!**
**Qaçıram, indi,**
**Əriyib yuxum –**
**Dum-dum, dum-dum, dum"**

**Sərçəcik:**

**Yuvadan çıxıb**
**Bala sərçəcik,**
**Baxdı ətrafa,**
**Elədi cik-cik.**
**Sevindiyindən**
**İçini çəkdi,**
**Nəyi gördüsə,**
**Dedi qəşəngdi**

*( Davamı “Mənim kiçik ulduzlarım” kitabında verilmişdir.*

## Oğul BUĞAC




**__İkinci sərgini__** Teymur Elçinin ulu “Dədə Qorqud” poemasının motivləri əsasında yazdığı “***Oğul Buğac***” poeması əsasında hazırlaya bilərik. Sərgini “***Dünən də, bu gün də sabaha məxsusdur ”*** *başlığı ilə* verə bilərik. Sərgidə “Oğul buğac” kitabından götürülmüş illisturasiyalardan istifadə etsək daha maraqlı olar.

Həmçinin burada uşaqların “Dədə Qorqud” əsəri haqqında çəkdikləri illüsturasiyaları, rəsmləri nümayiş edə bilərik. Bu əsərlərin nümayişi üçün əvvəlcədən kitabxanada mövzuya uyğun “Dədəm Qorqud” adlı rəsm müsabiqəsi keçirilir. Müsabiqə zamanı təqdim olunmuş rəsm əsərlərinə baxış keçirilir və onların arasından mövzuya daha yaxın olanları seçilir.



XX əsrin ikinci yarısından sonra da uşaq ədəbiyyatı yeni bir istiqamətdə öz axtarışlarını davam etdirmişdir. Bu işdə görkəmli dövlət xadimi, uşaq ədəbiyyatı sahəsində xüsusi istedada malik Teymur Elçinin xüsusi yaradıcılıq fəaliyyəti olmuşdur. Şairin 1955-ci ildə çap olunan “Qar qız” kitabından sonra bir-birinin ardınca “Bip-bip”, “Qulaq asın, danışım”, ”Mənim kiçik ulduzlarım”, “Torağayın nəğməsi” və b. kitabları göstərdi ki, uşaqları sevmədən, onların maraq və psixologiyasını bilmədən onlarla işləmək olmaz.

Uşaq ədəbiyyatında yer alan tapmacaların köməyi ilə uşaqlarda müəyyən əşya və hadisə haqqında mühakimə yürütmək vərdişi, uğurlu nəticə çıxartmaq bacarığı, hazırcavablıq tərbiyə olunur. Məhz T. Elçin də yaradıcılığında tapmacaların ən yaxşı nümunələrini yaratmışdır. 37 tapmacadan ibarət silsilədə bu baxımından çox dəyərlidir. Kitabxanada kiçikyaşlı uşaqlar arasında bu tapmacalardan istifadə etməklə viktorinalar təşkil edə bilərik. Bu da uşaqlarda düşünmə qabiliyyətini yaxşılaşdırmaqla yanaşı balaca oxucularımızın kitabxanaya cəlb olunmasına da köməklik edər.

## Tapmacalar:

**1) Üzər suda,**
**Batar suda,**
**Gəzər suda,**
**Yatar suda.**
**Qanadları,**
**Qolları var.**
**Xərclənməyən**
**Pulları var. (*Balıq*)**

**2) Görənlər bilir**
**Götürdüyüm yük**
**Həmişə olur**
**Özümdən böyük**
**Torpaqda dərin**
**Yuvam var sərin.**
**Özüm çalışqan,**
**Adım?... ( *Qarışqa* )**

Fəsillərə aid tapmacalar isə uşaqların təfəkküründə hər fəslin mənzərəsini canlandıracaq. Cavabı düzgün tapmaq üçün düşünmək onların məntiqi təfəkkürünü inkişaf etdirəcək. Uşaqlar arasında bu tapmacalardan ibarət yarışma keçirə bilərik.Tapmacaların cavabını doğru tapan iştirakçı sonda mükafatlandırılır.

**Deyin, nə vaxt**
**Əriyir qar,**
**Baş qaldırır**
**Yaşıl otlar ( *Yazda* )**

**Deyin nə vaxt**
**İsti olur,**
**Anbarlara**
**Taxıl dolur? (*Yayda*)**

**Deyin nə vaxt**
**Bağlar solur**
**Yarpaqları**
**Yellər yolur ( *Payızda* )**

**Deyin, nə vaxt**
**Sular donur,**
**Yerə ağ-ağ**
**Quşlar qonur ( *Qışda )***

Teymur Elçin həmçinin respublikamızda uşaqlar üçün yazılan bir sıra mahnıların müəllifidir. Onun “*Bizim həyət”,”Bip-bipin nəğməsi”, “Cü-cü*”, və b.

şeirlərinə yazılmış nəğmələri uşaqların zövqünü oxşayar. Kitabxanada bu mahnılardan ibarət uşaqlar arasında “ **Şən mahnım** “ adlı şeir-mahnı müsabiqəsi təşkil edə bilərik.

Müsabiqədə şairin sözlərinə yazılmış aşağdakı mahnılardan istifadə edə bilərik:
**Gözəl Vətən (Söz: Teymur Elçin, mus: Oqtay Zülfüqarov)**
**Gəl, bahar (Söz: Teymur Elçin, mus: Oqtay Zülfüqarov)**
**Gəl, barışaq (Söz: Teymur Elçin, mus: Oqtay Zülfüqarov)**
**Qış nəğməsi (Söz: Teymur Elçin, mus: Oqtay Zülfüqarov)**
**Cü-cü (Söz: Teymur Elçin, mus: Oqtay Zülfüqarov)**
**Bizim həyət (Söz: Teymur Elçin, mus: Fikrət Əmirov)**
**Bip-bipin nəğməsi (Söz: Teymur Elçin, mus: Fikrət Əmirov)**

Oxucuların sevimli şairimizin yaradıcılığı haqqında nə bildiklərini öyrənmək üçün anket sorğusu keçirmək məqsədə uyğun olar. Sorğumuzu keçirmək üçün aşağdakı suallardan istifadə edə bilərik.

1. Teymur Elçin kimdir?
   - ☺ şair
   - ☺ rəssam
   - ☺ bəstəkar

2. Şairin şeirlərindən hansılarını bilirsiniz?
   - ☺ ________________________

3. Göydən gələ-gələ
   Düşür gilə-gilə.
   Tapın adı nədir?
   Gərək hamı bilə
   Şairin yazdığı bu tapmacanın cavabı nədir?
   - ☺ qar
   - ☺ yağış
   - ☺ dolu

4. Teymur Elçinin hansı mahnılarını bilirsiniz?
   - ☺ ______________________________

5. Teymur Elçinin ssenarisi əsasında çəkilən “Qara Leylək” cizgi filminə baxmısınızmı?

☺ bəli

☺ xeyir

6. Şairin “Qonaqlıq” şeirini oxumusunuzmu?

☺ bəli

☺ xeyir

7. Şeirdə çaqqal hansı heyvanları qonaqlığa çağırır?

☺ ______________________________

8. Şeirdə kirpinin aqibəti necə olur?

☺______________________________

9. Eşidin, bilin,
Can, ay can, ay can!
Bu gün beş alıb,
beş alıb ........
“Elcan” şeirindən olan bu şeirdə nöqtələri yerinə hansı ad olacaq?

☺ ______________________________

## Ədəbi-bədii gecə

Kitabxanada keçirilən maraqlı tədbirlərdən biridə ədəbi-bədii gecədir. Şairin yubileyi münasibətilə, ***“Uşaqlar üçün yazanda...”*** adlı ədəbi-bədii gecəni təşkil etmək olar. Gecədə iştirak etmək üçün uşaq ədəbiyyatı nümayəndələrimizdən, uşaq şairləri, yazıçıları, müəllimlər, oxucular, dəvət edilir. Gecə keçiriləcək zala şairin portreti vurulur. Teymur Elçinin şeirlərindən müxtəlif parçalar, nağıl qəhrəmanlarının şəkilləri zalın divarından asılır. Həmçinin tədbir zamanı uşaqların zövqünü oxşayan müxtəlif dekorasiyalar bəzəkli şarlar və s. istifadə edə bilərik. Zalda şairin kitablarından ibarət sərgi yerləşdirilir. Sərgidə şair haqqında müxtəlif sitatlardan istifadə etmək daha da sərgini maraqlı edər. Gecə Şairin sözlərinə yazılmış “Can Azərbaycan” mahnısı ilə başlayır.

Bayram gəlir elimə, elimizə,
Nəğmə düşür dilimə, dilimizə,
Könlüm gülür, elim gülür, gülür gözəl diyarım,

Çalır tarı, çalır sazı, gülür ellər, gülür.

Hər yan gül-çiçək, əlvan gül-çiçək, gül çiçək…
Könlüm gülür, elim gülür, gülür gözəl diyarım,
Gülür ellər Azərbaycan gülür.
Çalır tarı, çalır sazı, gülür ellər, gülür.

Zəhmət çəkib hünərlə min bir əllər
Xonça tutub el üçün qız-gəlinlər
Könlüm gülür, elim gülür, gülür gözəl diyarım,
Çalır tarı, çalır sazı, gülür ellər, gülür.
**Mus: Fikrət Əmirov**
**Söz: Teymur Elçin**

**I aparıcı:** Salam əziz uşaqlar, hörmətli qonaqlar. Bu gün bura Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, uşaqların sevimli şairi, nəğmələri dillər əzbəri olan Teymur Elçini xatırlamaq üçün yığışmışıq. Axı onun bu il 90 illik yubileyi qeyd olunur.

**II aparıcı:** Bədii yaradıcılığa hələ erkən yaşlarında başlayan Teymur Elçin yaradıcılığında Azərbaycan uşaq ədəbiyyatının ən gözəl nümunələrini yaratmışdır. Təsadüfi deyil ki, şair Teymur Elçindən söz düşəndə həmişə onu uşaq ədəbiyyatımızın tanınmış nümayəndəsi kimi təqdim etsələrdə o, ədəbiyyatşünaslığımızın görkəmli nümayəndələrindəndir. Çünki uşaq dünyasının qayğıları bütövlükdə ədəbiyyatımızın problemləridir. Əslində sülh, dinc yaşamaq, əmin-amanlıq problemləri deyəndə gözümüzün önünə elə uşaqlar gəlir.Bu meyarlara əsasən şairin yaradıcılığına nəzər salanda məhz onun uşaqlar üçün nə qədər narahat olduğunu görürük.

***Yazan çoxdur.***
***Elə yaz ki,***
***Mahnın sözsüz olmasın.***
***Deyən çoxdur.***
***Elə de ki,***
***Sözün duzsuz olmasın***

*Gəlin birlikdə uşaqların hazırladığı "Hesabla tap" səhnəciyinə tamaşa edək:*

*Səhnədə uşaqlar görünür. Hər cavabı tapan oxucu yeni misal söyləyir:*

*I oxucu üzünü o biri oxucuya tutub deyir:*

**I oxucu:** Bir sərçə qondu
Səhər eyvana.
Yaşar gətirib
Dən tökdü ona.

**II oxucu:** Üçü də gəldi,
Elədi cik-cik:
Bizə də dən ver,
Biz də gəlmişik.
Tapın uşaqlar:
Neçə sərçəyə
Dən verdi Yaşar?

*I oxucu üzünü yanındakı oxucuya tutub:*
Üç dəftərdən birini
Bağışladım Gülşənə
Neçəsi qaldı mənə ?

II *oxucu cavabı deyir. və yenisini söyləyir.*
Bir ikiyə qarışdı,
*Üç küsmüşdü, - barışdı,*
*Yığışdılar bir yerə,*
*Hamısına gəldi güc,*
*Nə bir oldu,*
*Nə iki,*
*Nə də üç!*
*Tap görüm!*

**I oxucu:** Növbəti misalı mən deyəcəyəm:
Dörd armudum var idi,
Bacım dedi gəl, bölək.
Dördü böldüm ikiyə
Sən hesabla biz bilək.

**I aparıcı:** Şairin " Mən kiməm " nəğməsi balaca oxucularımızın ifasında çox maraqlı alınıb. Gəlin birlikdə tamaşa edək.

*( Uşaqlar bağban, həkim, neftçi, dərzi formalarında səhnəyə gəlir. Fortepianonun müşayəti ilə hər bir oxucu öz nəğməsini oxuyur )*

**Həkim:** **Bilirsiniz mən kiməm?**
**Balaca bir həkiməm.**
**Trubkanı qulağıma,**
**Bax, beləcə taxaram;**
**Xəstələrə, bax beləcə,**
**Bax beləcə baxaram.**

*( Əlində bel yabası olan bağbanın nəğməsi isə belədir* **)**

**Bağban:** **Mən balaca bağbanam,**
**Siz tanıyan bağdanam.**
**Ağacları cərgə-cərgə,**
**Bax, beləcə əkərəm;**
**Suyunu mən, bax beləcə,**
**Bax beləcə tökərəm.**

*( Bu isə qocaman neftçimizdir. Gecə gündüz buruqlara yol açır )*

**Neftçi:** **Bilirsiniz nəçiyəm? –**
**Mən Xəzərdə neftçiyəm.**
**Qara nefti göy sulardan**
**Bax, beləcə çəkərəm;**
**Gəmilərə bax beləcə,**
**Bax beləcə tökərəm.**

*( Dərzi biçdiyi paltar əlində öz mahnısını oxuyur)*

**Dərzi:** **Yaxşı bir dərziyəm mən,**
**Hər iş gəlir əlimdən.**
**Uşaqların paltarını**
**Bax beləcə tikərəm;**
**Ütüsünü bax beləcə,**
**Bax beləcə çəkərəm**

*( Balaca xarratımız isə öz peşəsindən danışır )*

**Xarrat:** **Bilin mən də xarratam**
**Öyrədib məni atam.**

**Taxtaları bir-birinə**
**Bax beləcə vuraram.**
**Evləri mən bax beləcə,**
**Bax beləcə quraram.**

( Bu da bizim balaca maşinistimizin nəğməsidir )

**Maşinist:** **Çoxdur mənim hörmətim,**
**Tapın nədir sənətim.**
**Qatarımı axşam, səhər,**
**Bax, beləcə sürərəm;**
**Yol üstündə duran olsa,**
**Ucadan fit verərəm.**

*( Mahnı bitdikdən sonra uşaqlar səhnədən gedirlər )*

**I aparıcı:** Azərbaycan uşaq ədəbiyyatında yaratdığı nümunələrlə yanaşı şairin 13 ölkənin xalq poeziyasından etdiyi tərcümələri də diqqətə layiqdir. Dili dilimizdən, sərhədləri sərhədlərimizdən, adət ənənələri adət-ənənələrimizdən çox-çox uzaq olan xalqların tərcümələri şairin qələmində  sanki bizim dilə çox yatımlı, sadə, səliqəlidir.

**II aparıcı:** Budur  gəldi qaranquş
Dənizlərdən uçan quş.
Özünü tez yetirdi,
Bizə nəğmə gətirdi.
"Əziz mart, salam sənə!"
Soyuq fevral keçsənə.
Yağsa da, lap qar, yağış
Yaz gəldi yaza alqış!"

**I aparıcı:** Yunan xalq poeziyasından edilən bu tərcüməni şair dilimizdəki sözlərlə elə dolğun ifadə etmişdir  ki, sanki tərcümədən oxumuruq. Hətta rus ədəbiyyatının görkəmli nümayəndəsi Korney Çukovski uğurlu tərcümələrinə görə Teymur Elçinə öz məktubunda təşəkkürünü də bildirmişdir. O "Göndərdiyiniz kitablar mənə böyük sevinc gətirmişdir. Xəstəlik imkan verməmişdir ki sizə vaxtında təşəkkürümü

bildirim. Əlinizi bərk-bərk sıxıram.” deyə öz məktubunda şairə minnətdarlığını bildirmişdir.

***II aparıcı:*** Teymur Elçin ilk baxışda sadə görünən uşaq ədəbiyyatına müraciət edərkən, dövrün, zamanın tələbini unutmur. Qaldırdığı məsələlərə müasir mənəvi problemlər səviyyəsindən baxır. Qarğanın məktəbi şeirini gəlin yada salaq.

Bir gün yığıb quşları
Az-çox oxumuşları
Dil öyrədirdi Qarğa....

Qarğa Sərçəni, Bülbülü özü kimi danışmağa öyrətmək istəsə də bircə Tutuquşu onun səsinə səs verir. Şeir bütövlükdə insanları Tutuquşu olmamağa öz səsində ötməyə səsləyir, Qarğanın dəst-xəttini pisləyir**.**

Daha gələn olmadı;
Məktəbdə
Qarğa qaldı,
Bir də tutuquşları;
Onların bir-birindən
Çox gəlirdi xoşları.

**II aparıcı:**

*Hər anaya –*
*Öz balası,*
*Hər balaya*
*Öz laylası.*

**I aparıcı:** *Şairin “Analar və Laylar” əsəri də formasına görə deyil, həm də məna və məzmun etibarı ilə çox dəyərli və təsirlidir. Ana laylası hər bir ananın öz övladına istəyi məhəbbəti, qayğısı deməkdir. Şeirdə də hər bir canlının balasına laylası dinlənilir.Gəlin görək əsərdə layla deyən kimlərdir. Turac, Qurbağa, Delfin, Kirpi, Canavar.*

*( Bu heyvanların geyimində səhnəyə uşaqlar gəlir. İlk əvvəl Turac laylasını söyləyəcək ).*

***Turac****: ( Öz - ozünə danışır) Dalımca bir ovçu gəlir, məni görsə vuracaq ( qaçır)*

***II aparıcı:*** *Yuvasına çatdı turac Cücələri yığdı ana başına, başlayır laylasına*

***Turac:*** *Tapar tülkülər sizi...*
*Əgər sizi güdsələr,*
*Bircə-bircə tutsalar,*
*Tükünüzü didsələr,*
*Onda mən neylərəm bəs?*
*Bizim bu meşəlikdə*
*Gəlməz köməyə heç kəs.*
*Tez yatın, salmayın səs.*

***aparıcı:*** *Qurbağanın isə öz çömçəquyruğuna laylası isə belədir:*

***Qurbağa:*** *Sən tez böyü mənə çat*
*Yuxun gəlir, tez ol yat,*
*Yat, mənim ağa balam,*
*Körpəm, qurbağa balam,*
*Ye, ağzın yekə olsun,*
*Boyun bir tikə olsun,*
*Səsin tutsun gölümü,*
*Yaxın qoyma ölümü.*

***aparıcı:*** *Yuvasına qayıdan canavar isə tələsirdi.Onu balaları gözləyirdi. Axı onlar ac idilər. Ana canavar gətirdiyi quzunu onlara yedirdib başladı öz laylasına*

*( Canavar geymli oxucu asta-asta öz laylasını söyləyir )*

***Canavar:*** *Yat mənim kiçik balam*
*Tez böyü küçük balam*
*Qulaqların, gözlərin,*
*Dişlərin iti olsun;*
*Kimi görsən parçala*

***aparıcı:*** *Delfinlər isə balalarını belə görmək istəyirmiş*
*( Delfin geyimli oxucu laylasını söyləyir)*

***Delfin:*** *A mənim ilkin balam,*
*Balaca delfin balam.*
*Göy sular yerin olsun,*
*Yat, yuxun şirin olsun.*

*Qaçma ora bura sən,*
*Tez düşərsən tora sən.*
*Ağıllı ol can balam,*
*Göyçək, mehriban balam.*

***aparıcı:*** *Lap kirpi yaddan çıxmışdı. Axı onlarında öz balaları üçün laylaları var*

*( Kirpi geyimli oxucu asta-asta laylasını söyləyir )*

***Kirpi:***
*Yat, körpəciyim.*
*İynələrin çox,*
*Hərəsi bir ox;*
*Kim sənə dəysə,*

*Gözünə batsın.*
*Balam tez yatsın.*
*Yat, kirpiciyim,*
*Yat körpəciyim.*

***aparıcı:*** ***Bax beləcə:*** *Gecələr oyaq qalıb*
*Layla deyər analar.*

***I aparıcı:*** *Yatmaq üçün öz anasından layla gözləyən körpə də anasına:*

***oxucu:*** *( körpə )* - *Bəs mənim laylam, ana?!*

***Ana:*** - *Öz laylan var sənin də.*
*A qadan alım,*
*Yadımdan çıxıb.*
*Bir azca dayan,*
*Yadıma salım.*

*aparıcı:* *İşıq gəldi elə bil*
*Ananın gözlərinə...*
**Oxudu:**

***Ana:***
*Ceyran körpə ahuya*
*Laylasını oxuya*
*Canavarın balası*
*Çoxdan gedib yuxuya*
*Yat, qoçaq balam,*
*Yat, oyaq balam,*

*Sayıram gecələri,*
*Təkləri, bircələri.*
*Sən də yat, çoxdan yatıb*
*Turacın cücələri.*
*Yat, göyçək balam,*
*Mənim tək balam.*

*Qurdlar, quşlar yatıblar,*
*Yuxuya bal qatıblar.*
*Qurbağanın gölünə*
*Elə bil daş atıblar.*
*Sən də yat, balam,*
*Şokalad balam.*

*( Səhnədən oxucular gedir)*

***aparıcı:*** *Dədə*m Qorqud!
Aşıq babam, ozan babam,
Mənim ölməz dastanımı
Yazan babam!

deyən sevimli şairimiz Teymur Elçin üzünü uşaqlara tutub böyüklər üçün, böyüklərə tutub balacalar üçün fikir yürüdən, nəsihətlər deyən şairlərimizdəndi. Onun şeirlərinin uşaqlar üçün tərbiyəvi rolu çox böyükdür.

**I aparıcı:** Ədəbiyyatımızda gördüyü işlərlə yanaşı şairin tərcümə sahəsində də xidmətləri böyükdür. Bir sıra xalqların ədəbiyyatının görkəmli nümayəndələrindən olan Y.Raynisin, S.Marşakın, K. Çukovskinin, A. Barto, Voronkovun və b. yazıçıların uşaq əsərlərini balaca oxucularımıza çatdırmışdır.

**II aparıcı:** Teymur Elçinin şeirlərində folklor motivləri olduqca güclüdür. Onun yaradıcılığı adətən xalq ədəbiyyatı ilə qarşılıqlı olaraq öyrənilir. Uşaqların şairin şeirlərini sevə-sevə oxuyub əzbərləmələri də təsadüfi deyil. Xalq dilinin incəliklərindən məharətlə istifadə edən şairin şeirləri oxucuların yaddaşında asanlıqla qalır. Bunu şairin incə yumorlu əsərlərindən hiss etmək olar.

Qəribədir bu şəhərdə iş qanunu,
Əzbər bilir hamı onu:
“Ver, yeyim,
ört yatım,
gözlə, canım çıxmasın!”
Yer üzünün tənbəlləri,
Tanıyırlar bu şəhəri.
Kim istəsə ora getmək,
Tısbağaya minsin gərək

**I aparıcı:** Teymur Elçinin şeir və poemaları, nəğmə və nağılları sadədir, aydındır.

**II aparıcı:** Lakin bu sadəlikdə bir müdriklik, bu aydınlıqda oxucu gözü ilə görünməyən bir mətləb var.

**I aparıcı:** Teymur Elçin bu gün aramızda olmasada, onun dərsliklərdə, kitablarda qalan şeirləri, mahnıları öz mənalı ömrünü davam etdirməkdədir.

**II aparıcı:** Təskinliyimiz də elə odur ki, şairin ömrü elə onun şeirlərinin ömrü ilə ölçülür. Hələ neçə-neçə nəsillər Teymur Elçinin şeirlərini oxuya-oxuya boy atacaq,vətənimizin adına layiqli qızlar, oğullar olacaqlar.

*( Sonda şairin həyat və yaradıcılığına həsr olunmuş “Ziyalı ömrü” filmi nümayiş edilir.)*

Son

## İstifadə edilmiş ədəbiyyat:

Elçin T. Mənim kiçik ulduzlarım. - B.: Gənclik, 1985. – 352 s.

Elçin T. Oğul Buğac . - B.: Gənclik, 1988. – 40 s.

Elçin T. Torağayın nəğməsi . – B.: Yazıçı, 1979. – 202 s.

Əliyev T. Bip-Bip. – B.: Azərbaycan Uşaq və Gənclər ədəbiyyatı nəşriyyatı, 1959. – 32 s.

Elçin T. Din – Dan. – B.: Azərnəşr, 1964.- 15 s.

Bahar, adlar, uşaqlar. – B.: Azərnəşr,1968. – 111 s.

Balaca Aytən. - B.: Gənclik, 1983. – 13 s.

Bip-Bip. – Uşaqgəncnəşr, 1959 . – 31 s.

Laylalar. – B.: Gənclik, 1970. – 14 s.

Toğrul babanın nağıl ağacı. – B.: Gənclik, 1981. – 60 s.

## Haqqında:

Abdulla A. Sadə, müdrik poeziya // Ədəbiyyat və incəsənət. – 1984. - 6 aprel

Vəfalı A. Uşaq paklğı, böyük müdrikliyi // Ədəbiyyat . – 2000. – 31 mart

Yusifoğlu R. Ustad qələmində uşaq dünyası // Ədəbiyyat. – 2004. – 26 mart

Zahid X. Söz adamı // Ədəbiyyat. – 2002. – 15 mart

**Redaktor:** **Şəhla Qəmbərova - F. Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**
**Tərtib edəni:** **Nərgiz Məcidova – F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin baş kitabxanaçısı**
**Korrektor:** **Məmmədli Ruhiyyə - F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin müdiri**